# Peşə bayramını uğurlu göstəricilərlə



Müstəqil dövlətimiz bu gün dünya ölkələrinin ən qabaqcıl təcrübəsindən və dəyərlərindən bəhrələnərək inkişaf edir. Ölkəmizdə demokratik cəmiyyət formalaşıb. İndi dünyanın, regionun əsas strateji və qlobal layihələri bizim mənafelərimiz nəzərə alınmadan həll edilmir. Son on ildə həyata keçirilən infrastruktur layihələri Azərbaycanın bütün sahələrində olduğu kimi, yol-nəqliyyat kompleksinin müasirləşməsinə, dünya standartları səviyyəsinə yüksəlməsinə imkan vermişdir.

Son illər ərzində ölkə nəqliyyatının əsas sahələrindən biri olan dəmir yolunun perspektiv inkişafını təmin etmək məqsədilə ölkə başçısı cənab İlham Əliyev tərəfindən mühüm qərar və sərəncamlar imzalanmışdır ki, bu da dəmir yolunun sürətli inkişafı üçün əsas zəmin yaratmışdır. "Azərbaycan Respublikasında dəmir yolu nəqliyyat sisteminin 2010-2014-cü illərdə inkişafına dair Dövlət Proqramı"nın qəbulu da bu sahənin modernləşməsi və yenidən qurulmasını təmin edəcək əsas sənəddir. Proqramda nəzərdə tutulan əsas vəzifələrdən biri lokomotiv parkının yeniləşdirilməsi, yol, elektrik təchizatı, işarəvermə və rabitə təsərrüfatlarının əsaslı təmiri, Bakı-Böyük Kəsik istiqamətində sabit cərəyandan dəyişən cərəyana keçid və s.

Azərbaycanda bu gün uğurla reallaşdırılan beynəlxalq əhəmiyyətli layihələrdən biri Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin tikintisidir. Bu istər dünya, istərsə də yaşadığımız region üçün böyük strateji əhəmiyyət daşıyan bir layihədir. Bu barədə ölkə başçısı demişdir: "Hər bir istiqamətdə - avtomobil yollarının, dəmir yollarının bərpası üzrə iş gedir. Bu da çox vacibdir. Çünki biz sürətli dəmir yollarının fəaliyyətinə nail olmalıyıq. Yeni dəmir yolu xətləri o məqsədlə tikilir ki, qatarlar yüksək sürətlə hərəkət edə bilsin. Nəzərə alsaq ki, Azərbaycan yaxın zamanlarda nəqliyyat sahəsində böyük tranzit ölkəsinə çevriləcəkdir, Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi yekunlaşmaq üzrədir, Azərbaycanın dəmir yolları da yüksək dünya standartlarına cavab verməlidir". Dəmir yolu xətti üzrə beynəlxalq layihənin uğurla həyata keçirilməsi, Bosfor boğazında dəmir yolu tunelinin inşası, Transavropa və Transasiya dəmir yolu şəbəkəsinin birləşdirilməsi yük və sərnişinlərin birbaşa Azərbaycan və Gürcüstan ərazisindən keçməklə Avropa və Asiyaya çıxarılmasını təmin etməklə, bu ölkələrin tranzit potensialının artmasına, Avropaya inteqrasiya prosesinin daha da sürətlənməsinə, ölkəmizin dövlət müstəqilliyinin möhkəmlənməsinə xidmət edir.

Hazırda dəmir yolu infrastrukturunun təkmilləşdirilməsi istiqamətində genişmiqyaslı işlər sürətlə və yüksək keyfiyyətlə aparılır. Azərbaycan Prezidenti cənab İlham Əliyevin göstərişinə, tövsiyələrinə əsasən "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanovun rəhbərliyi ilə işlər uğurla həyata keçirilir, islahatlar aparılır. Dəmir yolu sektorunda qısa müddət ərzində görülən məqsədyönlü işlər öz müsbət nəticəsini verir. Bu gün istər vaqon, istərsə də lokomotiv parkının yeniləşməsi istiqamətində mühüm tədbirlər reallaşdırılır. "Azərbaycan Dəmir Yolları" QSC ilə "Qazaxıstan Dəmir Yolları" SC arasında Qazaxıstandan on yeni lokomotiv alınması ilə bağlı müvafiq müqavilə imzalanmışdır ki, bu da ölkəmizin müstəqillik tarixində mühüm hadisədir. Qazaxıstan ilə ABŞ istehsalı olan bu lokomotivlər ölkəmizə gətirilən ilk yeni lokomotivlər olacaq.

Dəmir yolu nəqliyyatında qeyd olunduğu kimi, bu gün yeniləşmə, müasirləşmə işlərinin aparılmasının nəticəsidir ki, qısa bir müddət ərzində həyata vəsiqə alan Bakı-Biləcəri-Sumqayıt marşrutu ilə hərəkət edən ilk sürətli müasir tələblərə cavab verən, müasir qatarlar yola salınmışdır. Bu marşrut xətti üzrə sərnişinlərin rahat, sürətli və təhlükəsiz daşınması üçün "Stadler Rail Group" şirkətinin sürətli elektrik qatarlarıdır. İkimərtəbəli, dörd vaqondan ibarət olan elektrik qatarlarının hər birinin ümumi sərnişin tutumu 919 nəfər, oturacaq yerlərinin sayı isə 396-dır. Sumqayıtdan Bakıya və əks istiqamətdə qatarların hərəkəti müxtəlif intervalla həyata keçiriləcək. Bu marşrut üzrə hərəkət edəcək qatarların yola salınması mərasimində çıxış edən ölkə başçısı vurğulayıb ki, bu gün dəmir yolu ölkəmizin ümumi tərəqqisinə uyğun şəkildə inkişaf edir və bu sahədə islahatlara böyük ehtiyac var. Dəmir yolu xətlərinin hamısı yeniləşməlidir.

Öz işlərini müasir tələblərə uyğunlaşdıran Xaçmaz stansiyasının kollektivi ötən 9 ay ərzində böyük nailiyyətlər əldə edib. Qeyd edim ki, tikintisinə 1897-ci ilin 25 mayında sərəncam verilən Xaçmaz dəmir yolu stansiyası 1900-cü ildən, Bakı-Mahaçqala dəmir yolu xəttinin istismara verildiyi vaxtdan şimal regionunun əhalisinə xidmət göstərir.

Yarandığı gündən Xaçmaz dəmir yolu stansiyası müxtəlif tarixi hadisələrin şahidi olmuşdur.

Uzun illərdir ki, stansiyada Azərbaycan polad magistralında birincilər sırasında olmaq ənənəsi formalaşmışdır.

Dəfələrlə stansiyada respublika dəmiyolçuları üçün "qabaqcıl təcrübə məktəbi", təcrübə mübadiləsi tədbirləri keçirilmişdir.

Bu gün də stansiya kollektivi öz keçmiş ənənəsinə sadiq qalaraq fəaliyyətində yüksək əzmkarlıq və peşəkarlıq göstərir. Kollektivdə peşəkarlarla yanaşı gənclər də çalışır. Gənc kadrların hazırlığına xüsusi diqqət yetirilir. Məhz bunun nəticəsidir ki, işçilərin 40 faizi gənclərdir.

Stansiyada göstərilən xidmətin səviyyəsinin yüksəldilməsi üçün bütün mümkün zəruri tədbirlər görülür ki, bunun da nəticəsində



işin həcminin gündən-günə artması müşahidə edilir.

2015-ci ilin 9 aylıq istehsalat tapşırıqları artıqlaması ilə yerinə yetirilmişdir. Belə ki, əsas istismar iş göstəricilərindən olan yük doldurma planı 118 faiz, yük boşaltma 108 faiz, bir yük əməliyyatı altında səmərəsiz dayanma planı 103 faiz, işçi parkında vaqonların saxlanılması planı 108 faiz, stansiyadan vaqonların yola salınması planı isə 112 faiz yerinə yetirilmişdir.

Stansiyada qatarların hərəkətinin və manevr işlərinin, işçilərin və sərnişinlərin təhlükəsizliyinin təmin edilməsinə xüsusi diqqət yetirilir. İşçilərin əmək şəraitinin yaxşılaşdırılması üçün son aylarda xeyli təmir işləri aparılmışdır. Stansiya növbətçisinin otağında, yük və kommersiya sexində, həmçinin inzibati binadakı iş kabinetləri və sərnişin zallarında əsaslı və cari təmir işləri görülmüşdür. Aparılan abadlıq işləri bu gün də davam etdirilir. Stansiyanın texniki qurğularının təmiri sahəsində də xeyli işlər görülmüş və bu işlər davam etdirilir.

Azərbaycanın polad magistralında aparılan geniş həcmli islahatlara, həyata keçirilən yeniləşməyə Xaçmaz qovşağının dəmiryolçuları öz layiqli işi ilə dəstək göstərmək əzmindədirlər.

**Vüsal SADIQOV,**
**ADY QSC-nin Xaçmaz Stansiyasının rəisi.**